**Hacıbəyli T.B.**♦

**UOT: 343**

# Şəxsiyyətin azadlığının və ləyaqətinin hüquqi müdafiəsi onun təhlükəsizliyinin təminatının tərkib hissəsi kimi

**Xülasə:** Suverenliyini bərpa etmiş Azərbaycan Respublikasının müasir inkişaf dövrü ictimai və dövlət həyatının siyasi, sosial, iqtisadi, mənəvi və təşkilati əsaslarının yenidən qiymətləndirilməsi və yenilənməsi ilə səciyyələnir. Bununla belə, ümumbəşəri dəyərlər, demokratiya, insan və vətəndaş hüquq və azadlıqları qəti olaraq gündəmdən çıxarılmır, əksinə, şəxsiyyətə, onun təhlükəsizliyi, hüquq və azadlıqlarına diqqətin əhəmiyyətli dərəcədə artması möhkəm siyasi iradənin və bunun sayəsində cəmiyyətdə baş verən real dəyişikliklərin labüd nəticəsi kimi çıxış edir. Şəxsiyyət dövlətin fəaliyyətinin məqsəd və mənasını təmsil edir və onun hüquq və azadlıqları dövlətdə ən yüksək dəyər kimi qiymətləndirilir.

Vətəndaşların qanuni mənafelərinin təmin edilməməsi istər-istəməz cəmiyyətdə qeyri-sabit vəziyyətə səbəb olur ki, bu da öz növbəsində cinayətkarlığın artması, dövlətə inamsızlıq kimi sosial hadisələrə gətirib çıxarır. Ona görə də nisbətən sabit cəmiyyətin yaradılması problemi şəxsiyyətin təhlükəsizliyi, onun hüquq və azadlıqlarının həyata keçirilməsi üçün real imkanlarla bağlıdır. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan neçə yüzilliklərdən sonra tarixdə azad sosial inkişaf yolu ilə getmək, hüquqi dövlət, vətəndaş cəmiyyəti qurmaq imkanını əldə etmişdir ki, burada şəxsiyyət və onun təhlükəsizliyi həqiqətən ən yüksək dəyər kimi qəbul edilir.

Hər bir insan fərdi zərrə olmaqla yanaşı, eyni zamanda, hər bir cəmiyyətin və dövlətin əsasıdır. Ona görə də mahiyyət etibarı ilə istənilən ictimai-iqtisadi formasiya hər bir kəsin inkişafında, fərdin təhlükəsizliyinin, rifahının və mənafeyinin qorunmasında maraqlıdır. Başqa sözlə, hər bir cəmiyyət şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi üzrə güclü və etibarlı mexanizmlərin qurulmasında bilavasitə maraqlı olmalıdır. Bu baxımdan şəxsiyyətin təhlükəsizliyin təminatçısı kimi dövlətin rolunun gücləndirilməsi prioritet vəzifələr sırasına daxildir.

Təhlükəsizlik haqqında təsəvvürlərin yaranması və formalaşması mərhələlərini nəzərdən keçirən müəlliflər bu barədə ilk məlumatlara b.e.ə. IV-VI əsrlərdə Şərq və Qərb fəlsəfi və elmi irsində rast gəldiklərini qeyd edirlər. Sun Tzunun “Müharibə sənəti haqqında traktat” və U.Tzunun “Döyüş sənəti haqqında” əsərlərində dövlətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ideyalar müəyyən edilmişdir. Torpaq mülkiyyətinin yaranması ilə onun sahiblərinin təhlükəsizliyinin təmin edilməsi zərurəti yaranmışdır. Sonralar təhlükəsizlik ideyaları F.Akvinski, D.Didro kimi mütəfəkkirlər əsərlərində formalaşmışdır.

Hüquqi dövlətdə şəxsiyyətin təhlükəsizliyi maraqlarının həyata keçirilməsinin zəruri şərtlərindən biri ölkədə vətəndaşların həyat səviyyəsi və keyfiyyətinin milli harmoniyanı və ictimai-siyasi sabitliyi təmin edəcək səviyyədə saxlanmasıdır. Başqa sözlə, ölkənin prioritet maraqlar sisteminin əsasını şəxsiyyət, onun hüquqları, azadlıqları və azad inkişafının təminatları təşkil etməlidir. Cəmiyyətin, dövlətin insana münasibəti insana hansı maddi, fiziki və mənəvi nemətlərin verilməsi, fərdi hüquq və azadlıqların təminatlarının nədən ibarət olması və onların necə təmin olunması əsasında qiymətləndirilir.

---

♦ **Hacıbəyli Tural Bəhruz oğlu -** hüquq üzrə fəlsəfə doktoru, “Azərbaycan Sənaye Korporasiyası”ASC-də Hüquq departamentinin şöbə müdiri (Azərbaycan). E-mail: mahabbat_d.h.t@mail.ru

**Açar sözlər**: ümumbəşəri dəyərlər; demokratiya; insan və vətəndaş hüquq və azadlıqları; şəxsiyyətin təhlükəsizliyi; ləyaqət; azadlıq.

Şəxsiyyətin təhlükəsizliyinin təminatı prinsiplərinin formalaşması və təşəkkülü tarixi azadlıq, bərabərlik və ədalət kimi fundamental ideyaların hüquqi mexanizmlər vasitəsilə inkişafını əks etdirir. Minilliklər ərzində baş verən bu inkişaf prosesi şəxsiyyətin hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınması, dövlətin və cəmiyyətin insan fərdi üzərində qüdrətinin məhdudlaşdırılması istiqamətində ictimai münasibətlərin inkişaf tendensiyasını ifadə edir. Cəmiyyətin inkişafının hər bir mərhələsi şəxsiyyətin azadlığının əldə edilməsi və genişləndirilməsi istiqamətində atılan addımlardan biri olmuşdur.

İnsan hüquq və azadlıqlarının qorunması üçün daimi səy göstərilməsi lazımdır və hər bir nəsil bu böyük dəyəri qorumaq üçün tarixin əbədi çağırışlarına cavabdehdir. Hər bir cəmiyyətdə və ya dövlətdə şəxsiyyətin təhlükəsizliyinin müxtəlif təhlükələrdən qorunmasının mümkünlüyü daha yüksək və əhatəli təhlükəsizlik səviyyəsinin - cəmiyyətin və dövlətin təhlükəsizliyinin formalaşması ilə bilavasitə bağlıdır. Təhlükəsizlik vəziyyətinin reallığı ictimai şüurda əks olunduğundan, insanlarda narahatlıq səviyyəsinin azaldılması, rahatlıq hissinin və onu təmin edən sosial institutların sabitliyinin gücləndirilməsi isə vətəndaşların cinayətkarlığın məhdudlaşdırılması istiqamətində dövlətə yardım göstərmələrinə hazırlığının formalaşmasına müsbət təsir göstərir.

Təhlükəsizlik təhlükənin əks kateqoriyasıdır. Azərbaycan dilinin izahlı lüğətinə əsasən "təhlükəsizlik" heç bir təhlükə olmadığı hal, vəziyyət, şərait mənasını ifadə edir [1, s. 292]. Moskvada nəşr olunmuş "Hüquq ensiklopediyası" kitabına əsasən, təhlükəsizlik (ingilis dilində "safety", "security", fransız dilində "security") şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli maraqlarının siyasi, iqtisadi, sosial, hərbi, texnogen, ekoloji, informasiya və s. xarakterli daxili və xarici təhdidlərdən müdafiə oluna bilmək vəziyyətini, dövlətdə siyasi, iqtisadi və sosial stabilliyin müəyyən edilməsini, qanunlara və hüquq qaydalarına əməl olunmasını, tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini ifadə edir [9, s. 82].

Bəzən yalnız nəzəri ədəbiyyatlarda deyil, qanunvericilik aktlarında da "təhlükəsizlik", "milli təhlükəsizlik", "dövlət təhlükəsizliyi" terminləri eyniləşdirilir. Bunu Rusiya Federasiyasının "Təhlükəsizlik haqqında" 7 dekabr 2010-cu il tarixli qanunu timsalında görmək mümkündür [10]. N.K.Əliyev haqlı olaraq bu mövqe ilə razılaşmayaraq göstərmişdir ki, dövlət təhlükəsizliyi milli təhlükəsizlik anlayışının əsasını təşkil edir. Bununla belə, milli təhlükəsizlik anlayışı dövlət təhlükəsizliyi anlayışından daha geniş olub, özünə dövlətin təhlükəsizliyini də daxil edir. Belə ki, dövlət üçün yaranmış təhlükə onun süqutuna gətirib çıxara bilər, lakin millət öz mövcudluğunu davam etdirə bilər. Milli təhlükəsizlik hər bir ölkənin sabit inkişafının, şəxsiyyətin, cəmiyyətin və dövlətin müxtəlif fəaliyyət sahələrində həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən etibarlı müdafiə oluna bilmək təminatıdır [4]. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasına əsasən, milli təhlükəsizlik dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçim kimi Avratlantik məkana inteqrasiyanı, tarazlaşdırılmış xarici siyasətin çoxşaxəliliyini, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövlətin xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarını əks etdirir [2].

"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nın 1-ci hissəsi "Təhlükəsizlik mühiti" adlanır. "Dövlət sirri haqqında" 7 sentyabr 2004-cü il tarixli Qanunun preambulasında qanunun Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə qəbul edildiyi

təsbit olunmuşdur. “Təhlükəsizlik” ifadəsindən hüquq, politologiya və s. elm sahələrində, habelə bir sıra hadisə və proseslərə münasibətdə istifadə olunur. Hesab edilir ki, təhlükəsizlik – təhlükənin olmaması və ya potensial təhdidin, hədənin qarşısını səmərəli surətdə almaq və ya ləğv etmək vəziyyətini əks etdirir. Təhlükəsizlik nisbi anlayış olub insan fəaliyyətinin, ətraf aləmin konkret obyektinə münasibətdə istifadə edildikdə müəyyən məzmun əldə etmiş olur. Təhlükəsizliyin beynəlxalq təhlükəsizlik, milli təhlükəsizlik, dövlət təhlükəsizliyi, ictimai təhlükəsizlik, siyasi, iqtisadi, sosial, hüquqi, hərbi, texnoloji, ekoloji, informasiya, demoqrafik, psixoloji təhlükəsizlik və s. növləri fərqləndirilir [5].

Şəxsiyyətin şüurunda təhlükəsizlik qorxu və narahatçılıqdan azad olmaq, onun varlığına və rifahına heç bir xarici təhlükənin olmadığını başa düşməkdir. Şəxsiyyətin öz həyatında etibarlılığa və təhlükəsizliyə kəskin ehtiyacı var ki, bu da onun şüuruna ətrafdakı sosial reallığın ziddiyyətləri, qeyri-müəyyənliyi və ədalətsizliyi təsiri fonunda özünü göstərir. Məhz buna görə də şəxsi təhlükəsizlik çox vaxt onun həyat təminatı problemlərinin uğurlu həllinin nəticəsi kimi qəbul edilir. Təhlükənin qavranılması subyektiv olaraq çox vaxt insanların məsuliyyətsiz və ya səriştəsiz hərəkətlərinin, qəza və ya fəlakətlərin fiziki, maddi və ya psixoloji ziyana səbəb ola biləcəyini dərk etməsindən yaranan güclü emosional təcrübələr, mənfi psixi vəziyyətlər şəklində özünü göstərir. Əgər təhlükəsizlik fəaliyyəti bir şəxsin ətrafında cəmləşibsə, deməli, söhbət ictimai təhlükəsizlikdən deyil, başqa, oxşar sosial-hüquqi hadisədən – şəxsi təhlükəsizlikdən gedir. Bu, artıq fərdiləşdirilmiş, məqsədyönlü fəaliyyətdir və onu ictimai təhlükəsizliyin təmin edilməsindən əsaslı şəkildə fərqləndirir. Şəxsiyyətiun təhlükəsizliyi digər subyektlərin təhlükəsizliyinin təmin edilməsində əsas kateqoriya sayılır və hüquqi dövlətdə sosial müdafiənin ən mühüm obyektlərindən biri kimi qəbul edilməlidir.

İctimai həyatda baş verən neqativ proseslər, cəmiyyətin sosial qütbləşməsi insanların vəziyyətinə mənfi təsir göstərir və çox vaxt onların həyatı, sağlamlığı və rifahı üçün təhlükə yaradan ziddiyyətli hallarla müşayiət olunur. Sosial həyatın müasir durumu şəxsiyyətin təhlükəsizliyin təmin edilməsi fəaliyyətində yeni, əvvəllər mövcud olmayan çətinliklərlə qarşılaşdırmanı şərtləndirir. Belə şəraitdə əlverişsiz amillərin təsirinin aradan qaldırılması, neytrallaşdırılması və ya azaldılması ilə yanaşı, şəxsiyyətin təhlükəsizliyinə faydalı təsir göstərən yeni amillərin müəyyən edilməsi və ya mövcud olanlardan daha səmərəli istifadə edilməsi vacib sayılır.

Törədilməsinə görə cinayət cəzası və ya cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiq edilməsini nəzərdə tutan ictimai təhlükəli əməllər də şəxsiyyətin təhlükəsizliyi üçün təhdid sayılır. Şəxsiyyətin cinayətkar qəsdlərdən müdafiə dərəcəsi cəmiyyətdə hüququn inkişaf səviyyəsi ilə müəyyən edilir. Şəxsiyyətin təhlükəsizliyin ideya əsası dövlətin cinayət hüquqi siyasətində təzahür edir. Dövlət hakimiyyəti şəxsiyyəytin təhlükəsizliyinin təmini sahəsində cinayət hüquqi siyasətinin həyata keçirilməsinə məsuldur. Hüquqi siyasətin bu növü cəmiyyətin hərtərəfli və səmərəli hüquq sisteminin formalaşması üçün zəruridir. Cinayət siyasəti nəzəriyyəsinin əsası Frans fon List tərəfindən 1888-ci ildə müəllifi olduğu “Cinayət siyasətinin vəzifələri” adlı kitabda qoyulmuşdur. A.Feyerbax tərəfindən elmi dövriyyəyə termin kimi daxil edildikdən sonra ötən 220 il ərzində isə cinayət siyasəti üzrə zəngin və geniş tədqiqatlar aparılsa da, bu problem ilə bağlı hazırda təqdim olunan işlərin kontentinin cinayətkarlığın müasir reallıqlarına tam olaraq cavab vermədiyini qeyd etmək lazımdır. Ədəbiyyatda bu baxımdan müasir cinayət siyasətinin yenilənmiş konsepsiyasının işlənib hazırlanmasının zəruri olduğu göstərilmiş və burada aşağıdakıların önəmli olduğu vurğulanmışdır:

- dövlətin cinayət siyasətini, onun məqsədini və perspektiv vəzifələrini təsbit etməyə

səlahiyyəti olan subyektinin müəyyən edilməsi;

- dövlətin cinayət siyasətinin ən azından dövlətin siyasi-hüquqi manifesti kimi maddi məzmunla transformasiya olunması və bununla, nəhayət ki, cinayət siyasəti üzrə şəffaflığa və rəsmi statusa nail olunması;

- cinayət siyasəti nəzəriyyəsinin tədqiqat predmetinin dairəsinin genişləndirilməsi [3, s. 3].

Məlumdur ki, dövlət hakimiyyəti hüquqi tənzimləmələr vasitəsilə funksiyalarını yerinə yetirir. Bu kontekstdə hüquq dövlət siyasətinin mahiyyətini təşkil edən dövlət hakimiyyətinin, o cümlədən şəxsiyyətin təhlükəsizliyin təmin edilməsinin aləti kimi çıxış edir. Dövlətin istənilən fəaliyyəti, istər qanun yaradıcılığı, istər hüquq mühafizə, istərsə də hüquqtətbiqetmə fəaliyyəti şəxsiyyətin hüquq və azadlıqlarına qəsd edən ictimai təhlükəli əməllərin qarşısının alınması və onlarla mübarizə funksiyasının yerinə yetirilməsində böyük rol oynayır. Şəxsiyyətin təhlükəsizliyin cinayət-hüquqi əsaslarının qurulması, onun həyatının, sağlamlığının, şəxsi azadlığının, toxunulmazlığının, şərəf və ləyaqətinin qorunmasına və müdafiəsinə dair cinayət-hüquqi normaların elmi və kriminoloji (şəxsiyyət əleyhinə cinayətlərin obyektiv kriminoloji təhlili) cəhətdən əsaslandırılmış konsepsiyası, insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq standartlar əsas götürülməlidir.

Şəxsiyyətin təhlükəsizliyinə dair normaların belə konseptual modelinin metodoloji əsasını elmi əsaslı milli cinayət siyasəti təşkil etməlidir. Dövlətin cinayət siyasətinin effektivliyi böyük ölçüdə ictimai rəyin, cəmiyyətin cinayətkarlıqla mübarizədə ehtiyaclarının müəyyən edilməsi və nəzərə alınması, iqtisadi və sosial amillərin obyektiv və üstünlük təşkil edən müstəqil kriminoloji təhlili kimi qəbul edilməlidir. Bu baxımdan şəxsiyyətin təhlükəsizliyi sahəsində dövlət siyasəti həm də sosial, tibbi və mülki qanunvericiliyi qoruyan orqanların təcrübəsini müəyyən edir. Bu məlumatlar cinayətkarlığın faktiki vəziyyətini düzgün qiymətləndirməyə, şəxsiyyətin həyat, sağlamlıq və digər ayrılmaz hüquq və azadlıqları əleyhinə törədilən cinayətlərə qarşı mübarizənin əsas istiqamətlərini və üsullarını uyğunlaşdırmağa imkan verir.

Dövlətin cinayət siyasətində hər şeydən əvvəl iki zəruri cəhəti fərqləndirilir: mahiyyət və məzmun. Cinayət siyasətinin mahiyyəti cinayət hüququ və kriminologiya elminin inkişafında, cinayətkarlıqla mübarizə üzrə qanunvericilikdə və hüquq tətbiqetmə praktikasında ifadəsini tapır. Dövlətin şəxsiyyətin təhlükəsizliyi siyasətinin məzmunu isə hüquq siyasətinin ümumi konsepsiyasına əsaslanır, insan və vətəndaş hüquq və azadlıqlarının ən dolğun təminatına nail olmaq üçün dövlət orqanlarının səmərəli hüquqi tənzimləmə mexanizminin yaradılması istiqamətində elmi əsaslı, ardıcıl və sistemli fəaliyyətini əks etdirir. Bir sözlə, şəxsiyyətin təhlükəsizliyi sahəsində cinayət siyasətinin mahiyyəti şəxsiyyətin həyatı və sağlamlığı, şəxsi azadlığı, toxunulmazlığı, şərəf və ləyaqəti əleyhinə cinayətlərə qarşı mübarizənin əsas istiqamətlərində, məzmunu isə bu mübarizənin əsas vasitə və üsullarında təzahür edir.

Dövlətin şəxsiyyətin təhlükəsizliyi siyasətinin məqsədi onun məzmunu ilə müəyyən edilir və insanın yaşamaq, sağlamlığın qorunması, şəxsi azadlıq hüququnun qorunmasının səmərəli mexanizminin yaradılması və praktiki tətbiqi yolu ilə əldə edilən fərdi hüquqların prioritetinə əsaslanır. Şəxsiyyətin təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət siyasətinin cinayət-hüquqi aspekti dövlət fəaliyyətinin konkret cinayət-hüquqi vasitələrlə vətəndaşların həyatını, sağlamlığının, şəxsi azadlığının, toxunulmazlığının, şərəf və ləyaqətinin qorunmasına yönəldilməsindən ibarətdir və bu müddəa cinayət hüququnda şəxsi təhlükəsizliyin konseptual əsasını təşkil edir. Bu konseptual çərçivənin məzmunu aşağıdakıları özündə ehtiva etməlidir:

a) şəxsiyyət əleyhinə cinayətlərə qarşı cinayət hüququnun əsas prinsipləri;

b) şəxsiyyətə, onun həyatına, sağlamlığına, şəxsi azadlığına, toxunulmazlığına, şərəf və ləyaqətinə qarşı cinayətlər kimi tanınan ictimai təhlükəli əməllərin siyahısının kriminoloji cəhətdən adekvat müəyyən edilməsi;

c) şəxsiyyət əleyhinə cinayətlərin imtiyazlı və tövsifedici əlamətləri siyahısında öz əksini tapmalı olan məsuliyyəti yüngülləşdirən və ya artıran halların dairəsinin kriminoloji cəhətdən əsaslandırılması;

d) cəzanın növünün və həddinin şəxsiyyətə, onun ayrılmaz hüquq və azadlıqlarına qarşı edilən konkret qəsdin təhlükəlilik dərəcəsinə uyğun müəyyən edilməsi və bu, cəza sisteminin diferensiallaşdırılmasında, cinayət hüququ siyasətinin humanistləşdirilməsi və differensiallaşdırılması prinsipləri nəzərə alınmaqla alternativ cəza növlərinin mümkünlüyünün müəyyən edilməsində əks olunmalıdır.

Şəxsiyyətin təhlükəsizliyin konseptual əsaslarının kompleks işlənilməsi onun insan hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin prioritetlərinə və beynəlxalq hüququn standartlarına uyğun müəyyən edilməsi ilə yanaşı, cinayət qanunvericiliyinin müasir cəmiyyətin əsas dəyərlərinə uyğun həyata keçirilməsini təmin edəcəkdir. Fərdin şəxsi təhlükəsizlik istəyi demokratiyanın, ictimai və dövlət institutlarının möhkəmləndirilməsi, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılması, qanunçuluğun təmin edilməsi, ictimai asayişin mühafizəsi fəaliyyəti ilə təmin edilir. Şəxsi, ailə, ictimai, qanuni korporativ mənafelərin təmin edilməsi insanın həyat və fəaliyyətinin təhlükəsizliyinə əsaslı inamı formalaşdırır.

İctimai təhlükəli əməllərin törədilməsi nəticəsində əmələ gələn cinayət təhdidləri şəxsiyyətə qarşı yönəlmiş ən təhlükəli təhdidlər sırasında yer alır. İqtisadiyyatın və siyasi fəaliyyətin bir çox seqmentlərinin kriminallaşması, mütəşəkkil cinayətkarlığın, ətraf mühitə və digər dəyərlərə qarşı cinayətkar münasibətin geniş yayılması bu təhlükələrin xeyli artmasına rəvac vermişdir. Cinayət təhdidlərinin dəf edilməsi, ilkin və təkrar törədilmiş cinayətlərin sayının minimuma endirilməsi və s. mühüm göstəricilərdə ifadə olunan kriminal təhlükəsizlik ictimai münasibətlərin nizama salınması, cinayətin səbəb və şəraitinə təsir göstərilməsi, cinayətkarlığın qarşısının alınmas, cəmiyyətin və dövlətin həyati mənafelərinin cinayətkar qəsdlərdən müdafiə olunmasının real vəziyyətidir. Törədilmiş cinayətlərin operativ və tam açılması, istintaqının aparılması, məsuliyyətin qaçılmazlığının və cəzanın ədalətliliyinin təmin edilməsi, məhkumların islah edilməsi, zərərçəkmişlərə müxtəlif müdafiə tədbirlərinin və dövlət dəstəyinin göstərilməsi kriminal təhlükəsizliyi gücləndirir.

Hüquq ədəbiyyatında şəxsiyyətin təhlükəsizliyinə təsir edən amillərin təsnifatı aparılmışdır və bu zaman əsas diqqət iki mühüm xüsusiyyətə yönəldilmişdir. Birinci əlamət bu amillərin fərdin təhlükəsizliyinə təsir istiqamətidir. İkinci əlamət cəmiyyətin, dövlətin və onun təsisatlarının şəxsiyyətin təhlükəsizliyinə təsir imkanları ilə müəyyən edilir. Əgər bu amillər konkret tarixi şəraitdə müxtəlif sosial institutların mümkün təsiri sferasındadırsa, o zaman subyektiv olanlar qrupuna aid edilir, əksinə, sosial aktorların mümkün təsir dairəsindən kənarda olan amillər obyektiv qrupa aid edilir. Lakin bu xüsusiyyətlərin hər ikisi bir-biri ilə sıx bağlıdır və bir-birindən asılıdır.

Məqaləyə yekun vuraraq göstəririk ki, şəxsiyyətin təhlükəsizliyin təmin edilməsinin uğuru, şübhəsiz, səmərəli və kifayət qədər aydın qanunvericiliyin olmasından bilavasitə asılıdır. Məsələn, Azərbaycan Respublikasının qanunvericiliyinin bazasını təşkil edən Konstitusiyasına əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq

müqavilələrə uyğun tətbiq edilir (maddə 12). İnsan ləyaqəti qorunur və ona hörmət edilir (maddə 24). Hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər (maddə 28). Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz (maddə 46). Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz (maddə 33). Bir sözlə, Konstitusiyada insan və vətəndaş hüquqları və azadlıqlarının təminatı yüksək səviyyədə öz əksini tapmışdır.

Konstitusiyadan sonra, xüsusən, 1999-cu ildən başlayaraq qəbul edilmiş cari qanunvericilik aktlarında (Cinayət Məcəlləsi, Mülki Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Mülki-prosessual Məcəllə, İnzibati Prosessual Məcəllə və s.) insan və vətəndaş hüquq və azadlıqlarının hüquqi təminatları mexanizmlərinin tamamlanmasına öz töhfəsini vermişdir. Bununla belə, bir sıra qanunvericilik aktlarında yalnız redaksiya xarakterli deyil, həm də konseptual çatışmazlıqların olduğunu qeyd etmək olar. Məsələn, cinayət hüququ və cinayət-prosessual hüququ sahələrinin normaları cinayət törətmiş şəxslərə münasibətdə humanizm prinsipinin həyata keçirilməsinə yönəlsə də, zərər çəkmiş şəxslərin hüquq və qanuni mənafelərinin effektiv müdafiəsini nəzərdə tutmamışdır.

Təqdim edəcəyimiz digər mühüm nəticə təhlükəsizliyin təmin edilməsi üzrə əsas cavabdeh subyektlərinin müəyyən edilməsidir. Fikrimizcə, bu sahə üzrə müvəkkil qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları timsalında dövlətin özüdür. Dövlət, ictimai münasibətlərin bütün sahələrini əhatə etməklə, hakimiyyət orqanlarının hər birinin səlahiyyətlərini, spesifik vəzifə və funksiyalarını müəyyən edir, lazımsız paralellik və təkrarlamalara yol verməməyə çalışır. Hər bir orqanın səlahiyyətləri müəyyən edilərkən nəzarət, əlaqələndirmə və qarşılıqlı fəaliyyət funksiyaları müvafiq səlahiyyətli orqanlara həvalə edilir. Dövlət bununla bağlı konkret subyektə hüquq və vəzifələr verdikdə onun dövlət-hakimiyyət səlahiyyəti də müəyyən edilir.

## Biblioqrafiya

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. - Bakı, Şərq-Qərb, 2006. - 712 s.

2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası [Elektron resurs]. URL: http://www.migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf

3. Ələkpərov X.C. Müasir cinayət siyasətinin təşkilati-hüquqi və fəlsəfi problemləri // “Cinayət siyasətinin fəlsəfi-hüquqi problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 21 dekabr 2024-cü il, 28 s.

4. Əliyev N.K. Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərin ümumi səciyyəsi: milli təhlükəsizliyin qanunvericilik təminatı kontekstində // “Qanun” elmi hüquq jurnalı. - 2017. - № 11 (277).

5. Əliyev N.K. Milli təhlükəsizlik və milli maraq: qanunvericilik aspektində. [Elektron resurs]. URL: https://tedris.taxes.gov.az/assets/upload/files/2%281%29.pdf

6. Əliyev N.K. Milli təhlükəsizliyin anlayışı və qanunvericilik təminatının bəzi aspektləri haqqında // “Qanun” elmi hüquq jurnalı. - 2017. - № 9 (275). - S. 54-61.

7. Прудников А.С. Безопасность личности и ее обеспечение органами внутренних дел (теоретико правовое исследование). Автореферат докт.юрид. наук. Москва, 1999, 39 с.

8. Роот В. Сущность и содержание безопасности личности [Elektron resurs]. URL: https://cyberleninka.ru/article/n/mezhdunarodno-pravovye-akty-o-dostoinstve-lichnosti-ohrane-ee-prav-i-svobod-i-ih-realizatsiya-v-zakonodatelstve-rossiyskoy-federatsii

9. Тихомирова Л.В., Тихомиров М.Ю. Юридическая Энциклопедия. - М.: Юринформ-центр, 2002. - 972 с.

10. Федеральный закон «О безопасности» [Elektron resurs]. URL: http://svr.gov.ru/svr_today/doc4.htm

**Hajibeyli T.B.**♦

**UDC: 343**

## Legal protection of freedom and dignity of the individual as an integral part of ensuring its security

**Abstract:** The modern period of development of the Republic of Azerbaijan, which has restored its sovereignty, is characterized by a reassessment and renewal of the political, social, economic, moral and organizational foundations of public and state life. However, universal values, democracy, human and civil rights and freedoms are not categorically removed from the agenda, on the contrary, a significant increase in attention to the individual, his security, rights and freedoms is an inevitable result of a strong political will and, thanks to this, real changes taking place in society.

The individual represents the goal and meaning of the state's activities, and his rights and freedoms are valued as the highest value in the state. Failure to ensure the legitimate interests of citizens inevitably leads to an unstable situation in society, which in turn leads to social phenomena such as an increase in crime and distrust of the state. Therefore, the problem of creating a relatively stable society is related to the security of the individual, real opportunities for the implementation of his rights and freedoms. Having regained its independence in 1991, Azerbaijan, after several centuries in history, has gained the opportunity to follow the path of free social development, to build a legal state, a civil society, where personality and its security are truly perceived as the highest value. Each person, while being an individual particle, is at the same time the basis of every society and state.

Therefore, by its very nature, any socio-economic formation is interested in the development of every person, in protecting the security, well-being and interests of the individual. In other words, every society should be directly interested in establishing strong and reliable mechanisms for ensuring the security of the individual. In this regard, strengthening the role of the state as a guarantor of the security of the individual is among the priority tasks.

The authors, who consider the stages of the emergence and formation of ideas about security, note that they came across the first information about this in the philosophical and scientific herit-

---

♦ **Hajibeyli Tural Bahruz oglu** - Ph.D in law, Head of the Legal Department of OJSC "Azerbaijan Industrial Corporation" (Azerbaijan). E-mail: mahabbat_d.h.t@mail.ru

age of the East and the West in the 4th-6th centuries BC. In Sun Tzu's "Treatise on the Art of War" and U. Tzu's "On the Art of Martial Arts", ideas about ensuring the security of the state and the individual were defined. With the emergence of land ownership, the need to ensure the security of its owners arose. Later, security ideas were formed in the works of thinkers such as F. Aquinas and D. Diderot. One of the necessary conditions for the implementation of the interests of the security of the individual in a legal state is to maintain the standard and quality of life of citizens in the country at a level that ensures national harmony and socio-political stability. In other words, the basis of the system of priority interests of the country should be the individual, his rights, freedoms and guarantees of his free development. The attitude of society and the state towards man is assessed on the basis of what material, physical and spiritual benefits are provided to man, what the guarantees of individual rights and freedoms consist of and how they are ensured.

**Key words:** universal values, democracy, human and civil rights and freedoms, personal security, dignity, freedom.

## References

1. Explanatory dictionary of the Azerbaijani language. In four volumes. Volume IV. Baku, East-West Publ., 2006, 712 p. (in Azerbaijani).

2. National security concept of the Republic of Azerbaijan. Available at: http://www. migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf (in Azerbaijani).

3. Alekperov Kh.C. Organizational-legal and philosophical problems of modern criminal policy // Materials of the international scientific-practical conference on the topic “Philosophical-legal problems of criminal policy”. Baku, December 21, 2024, 28 p. (in Azerbaijani).

4. Aliyev N.K. General characteristics of crimes against the foundations of the constitutional structure of the Republic of Azerbaijan: in the context of legislative provision of national security. “Qanun” scientific and legal journal. No. 11 (277), 2017. (in Azerbaijani).

5. Aliyev N.K. National security and national interest: in the legislative aspect. Available at: https://tedris.taxes.gov.az/assets/upload/files/2%281%29.pdf (in Azerbaijani).

6. Aliyev N.K. On the concept of national security and some aspects of legislative provision. Qanun Scientific legal journal. No. 9 (275), 2017. P. 54-61. (in Azerbaijani).

7. Prudnikov A.S. Personal security and its provision by internal affairs bodies (theoretical and legal research). Abstract of the thesis for the degree of Doctor of Law. Moscow, 1999, 39 p. (in Russian).

8. Root V. The essence and content of personal security. Available at: https://cyberleninka.ru/article/n/mezhdunarodno-pravovye-akty-o-dostoinstve-lichnosti-ohrane-ee-prav-i-svobod-i-ih-realizatsiya-v-zakonodatelstve-rossiyskoy-federatsii (in Russian).

9. Tikhomirova L.V., Tikhomirov M.Yu. Legal Encyclopedia. Moscow, Yurinformcenter Publ., 2002, 972 p. (in Russian).

10. Federal Law "On Security" / http://svr.gov.ru/svr_today/doc4.htm (in Russian).

**Гаджибейли Т.Б.♦**

**УДК: 343**

# Правовая защита свободы и достоинства личности как неотъемлемая часть обеспечения ее безопасности

**Аннотация:** Современный период развития Азербайджанской Республики, восстановившей свой суверенитет, характеризуется переоценкой и обновлением политических, социальных, экономических, нравственных и организационных основ общественной и государственной жизни. Однако общечеловеческие ценности, демократия, права и свободы человека и гражданина не сняты с повестки дня; напротив, существенное усиление внимания к личности, ее безопасности, правам и свободам является неизбежным результатом сильной политической воли и благодаря этому в обществе происходят реальные изменения.

Человек олицетворяет цель и смысл деятельности государства, а его права и свободы признаются в государстве высшей ценностью. Необеспечение законных интересов граждан неизбежно приводит к нестабильной ситуации в обществе, что в свою очередь приводит к таким социальным явлениям, как рост преступности и недоверие к государству. Поэтому проблема создания относительно стабильного общества связана с обеспечением безопасности личности и реальных возможностей реализации ее прав и свобод. Восстановив свою независимость в 1991 году, Азербайджан обрел возможность после нескольких столетий истории встать на путь свободного общественного развития, создать правовое государство и гражданское общество, где личность и ее безопасность по-настоящему осознаются как наивысшая ценность. Каждый человек — это не только отдельная частица, но и основа каждого общества и государства. Поэтому, по сути, любая общественно-экономическая формация заинтересована в развитии каждого, в защите безопасности, благополучия и интересов личности. Другими словами, каждое общество должно быть напрямую заинтересовано в создании прочных и надежных механизмов обеспечения безопасности личности. В этой связи усиление роли государства как гаранта безопасности личности является одной из приоритетных задач. Авторы, рассматривающие этапы возникновения и становления представлений о безопасности, датируют первые сведения о ней X в. до н. э. Они отмечают, что они встречались в философском и научном наследии Востока и Запада в IV-VI вв. В «Трактате о военном искусстве» Сунь Цзы и в «Об искусстве боевых искусств» У. Цзы изложены идеи по обеспечению безопасности государства и личности. С возникновением права собственности на землю возникла необходимость обеспечения безопасности ее владельцев. Позднее идеи безопасности были сформированы в трудах таких мыслителей, как Ф. Аквинский и Д. Дидро.

Одним из необходимых условий реализации интересов безопасности личности в правовом государстве является поддержание уровня и качества жизни граждан в стране на

♦ **Гаджибейли Турал Бахруз оглы** - доктор философии по праву, начальник отдела юридического департамента ОАО «Азербайджанская промышленная корпорация» Азербайджан. E-mail: mahabbat_d.h.t@mail.ru

уровне, обеспечивающем национальное согласие и общественно-политическую стабильность. Иными словами, основой системы приоритетных интересов страны должна быть личность, ее права, свободы и гарантии ее свободного развития. Отношение общества и государства к человеку оценивается на основе того, какие материальные, физические и духовные блага предоставляются человеку, в чем заключаются гарантии прав и свобод личности и как они обеспечиваются.

**Ключевые слова**: общечеловеческие ценности; демократия; права и свободы человека и гражданина; личная безопасность; достоинство; свобода.